# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

01 (143) 30 yanvar 2020-ci il | İctimai-siyasi qəzet


## Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ilin yanvar ayında görkəmli hərbi xadim, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Əhəd oğlu Aslanovun anadan olmasının 110 illiyi tamam olur.

Bəşəriyyətin yaddaşına ən dağıdıcı müharibə kimi yazılmış İkinci Dünya müharibəsi zamanı faşizm əleyhinə mübarizə aparılmasında və insanlığın qorxunc nasizm təhlükəsindən xilas edilməsində Azərbaycan xalqının da böyük xidmətləri vardır. 1941–1945-ci illərdə Azərbaycanın altı yüz mindən artıq övladı müharibəyə yollanaraq müxtəlif cəbhələrdə vuruşmuş, Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmişdir.

Xalqımızın igid oğulları sırasında general Həzi Aslanovun qəhrəmanlığın rəmzinə çevrilmiş adı dərin ehtiramla çəkilir. Dünyanın faşizmdən qurtulması uğrunda ağır döyüşlərdə Həzi Aslanov mahir hərbi sərkərdə istedadı nümayiş etdirmiş və hərb salnaməsində yeni parlaq səhifələr açmışdır. Onun göstərdiyi misilsiz şücaət və başçılıq etdiyi tank alayının müstəsna rəşadəti torpaqlarımızın işğaldan azad edilməsinə hər an hazır olan Azərbaycan Ordusunun bütün şəxsi heyəti üçün əsl qəhrəmanlıq nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində xüsusi əhəmiyyətini nəzərə alaraq, Azərbaycan xalqının cəsur övladı Həzi Aslanovun anadan olmasının 110-cu ildönümünün layiqincə qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun 110 illiyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 dekabr 2019-cu il.***

## Prezident İlham Əliyev şəhidlərin əziz xatirəsini yad edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad ediblər.

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Qanlı Yanvar hadisələrindən 30 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları düz 30 il əvvəl həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı əlaltılarına dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın o zamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinin üzərinə sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.

Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev özünün və ailə üzvlərinin həyatının təhlükədə olmasına baxmayaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi. Məhz ümummilli lider Heydər Əliyevin bu cəsarətli addımı sayəsində dünyanın mütərəqqi qüvvələri də Azərbaycan xalqının məruz qaldığı bu dəhşətli və amansız terroru qətiyyətlə pislədi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.



Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı, SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Vaxtında dərindən araşdırılmayan və lazımi qiymətini almayan faciəyə yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra məhz Ulu Öndərin təşəbbüsü ilə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. Azərbaycan Respublikası Prezidentinin "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" 1994-cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar şəhidlərinin xatirəsini dərin ehtiramla yad edir. Faciənin otuzuncu ildönümü ilə əlaqədar Azərbaycanda və dünyanın müxtəlif ölkələrində silsilə anım mərasimləri, sərgilər, konfranslar keçirilir, bu qanlı qırğın, eləcə də Azərbaycan xalqının müstəqillik əzminin sarsılmazlığı bütün dünyaya çatdırılır. Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il dekabrın 13-də "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" Sərəncam imzalayıb. 20 Yanvar faciəsinin Azərbaycan xalqının müstəqillik mübarizəsində yeri və rolunun xüsusi vurğulandığı həmin Sərəncamda deyilir: "1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar".

Vətənin azadlığı uğrunda canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı həmişə dövlətimizin başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncamlar və fərmanlar verib. Bundan başqa, əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Ötən il əlil və şəhid ailələrinə yeni mənzillər verilib ki, onların arasında 20 Yanvar əlilləri və şəhidlərinin ailələri də var. 20 Yanvar faciəsində şəhid olan şəxslərin ailələrinə Prezident təqaüdü verilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da yaxşılaşdırılır.

Yanvarın 20-də - Ümumxalq Hüzn Günündə dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etdilər.

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş Nazir Əli Əsədov, Milli Məclisin Sədri Oqtay Əsədov və Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev iştirak ediblər.

AZƏRBAYCAN VETERANI

# Respublika Veteranları Təşkilatının üzvləri 20 Yanvar faciəsi qurbanlarının xatirəsini yad ediblər

***Respublikası Veteranları Təşkilatının üzvləri Şəhidlər xiyabanında 20 Yanvar faciəsi qurbanlarının məzarlarını ziyarət ediblər.***

Veteranlar şəhidlərin xatirəsini dərin ehtiramla yad edib, məzarları üzərinə güllər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov çıxış etmişdir. O, Azərbaycan tarixinin faciəli olduğu qədər də qəhrəmanlıq və



şərəfli səhifələrindən sayılan 20 Yanvarla bağlı geniş məlumat vermişdir. Bu faciənin təməlinin hələ 1987-ci ilin oktyabrında ermənilərin Azərbaycana qarşı torpaq iddialarının həyata keçirilməsinə mane olan Heydər Əliyevin Siyasi Bürodan və SSRİ rəhbərliyindən uzaqlaşdırılması ilə başlandığını bildirən C.Xəlilov demişdir: "20 Yanvar Azərbaycan xalqının milli azadlıq və demokratiya uğrunda mübarizəsini boğmaq, xalqa ağır mənəvi zərbə vurmaq məqsədilə qabaqcadan düşünülüb hazırlanmış təcavüzkarlıq aksiyası idi. Bu qanlı faciəni törədənlər Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının qarşısını bütün vasitələrlə almaq istəyirdilər. Ermənilərin əsas mədsədi isə DQMV-in Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilməsi idi. Bu məkrli planın ilk qurbanları Ermənistanda yaşayan azərbaycanlılar oldu. 1989-cu ilin sonunda Ermənistanda azərbaycanlılara qarşı son etnik təmizləmə həyata keçirilməklə, 230 min azərbaycanlı dədə-baba torpaqlarından qovuldu. Deportasiya zamanı 255 nəfər öldürüldü, 1200 adam yaralandı, 31 min ev və digər əmlaklar talan edildi. Bu olaylara Moskva göz yumur, Azərbaycanın o vatkı rəhbərləri isə səriştəsiz mövqe nümayiş etdirirdilər.

Həmin ağır günlərdə, 1990-cı il yanvarın 21-də ulu öndər Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində çıxış edərək, xalqla birgə olduğunu bildirdi. O, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, qanlı faciənin törədilməsinə görə mərkəzi və respublika rəhbərlərini ittiham etdi. Bu tarixi çıxışın mətni dünyaya, respublikaya geniş yayıldı. Xalqın qəlbində ümid çırağı yandı".

C.Xəlilov daha sonra demişdir: "20 Yanvarın 1999-cu ildən etibarən Ümumxalq hüzn günü kimi keçirilməsinin Əmək Məcəlləsində əksini tapması da məhz ümummilli lider Heydər Əliyevin xidmətidir".



Çıxış edən digər şəxslər də 20 Yanvarın Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsini yad edilməsi, həm də Azərbaycan xalqının qəhrəmanlıq, birlik günü olduğunu vurğulamış, şəhidlərin heç unudulmayacaqlarını, xalqımızın yaddaşında əbədi yaşayacaqlarını qeyd etmişlər.

# 26 ildən sonra kimliyi müəyyənləşən şəhidin nəşi ekshumasiya edilərək Yevlaxda dəfn olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının (Dövlət Komissiyası) Azərbaycan Respublikasının Baş prokuroruna müraciəti üzrə Bakı Hərbi Məhkəməsinin Qərarına uyğun olaraq, 1993-1994-cü illərdə Füzuli rayonu istiqamətində işğalçı Ermənistan Respublikasının silahlı birləşmələrinin hücumlarının qarşısını alarkən döyüşlərdə həlak olaraq tanınmadan İmişli rayonundakı "Şəmmədli" qəbiristanlığında dəfn edilmiş şəhidlərə aid meyit qalıqları ekshumasiya olunub. Həmin məzarlıqda yaxınlarının dəfn



olunduğunu ehtimal edən 8 itkin ailəsinin iştirakı ilə Dövlət Komissiyası, Respublika Hərbi Prokurorluğu və Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Elmi-Təcrübi və Tədris Birliyi tərəfindən 2019-cu ilin iyul ayında həyata keçirilmiş ekshumasiya prosesində 12 naməlum meyit qalığı müəyyən edilərək müvafiq nümunələr götürülüb. Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan Respublikasındakı Nümayəndəliyi ekshumasiya prosesinə texniki və ekspert dəstəyi göstərib.

Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Elmi-Təcrübi və Tədris Birliyinin mütəxəssisləri tərəfindən aparılmış molekulyar-genetik ekspertizanın nəticələrinə əsasən, meyit qalıqlarından və dəfn edilmiş şəxslərin yaxın qohumları olduğunu iddia edən ailə üzvlərindən götürülmüş nümunələrin eyniləşdirilməsi zamanı meyitlərdən birinin iddiaçı Məmmədova Yasəmən Vəlyəddin qızı ilə valideyn-övlad səviyyəsində qohumluq əlaqəsinin olduğu müəyyən edilib. Eyni zamanda, meyit qalıqlarının ekshumasiyası və molekulyar-genetik ekspertizasının yekunu ilə bağlı nəticələrə dair itkin ailələrinə ətraflı məlumat verilib.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Yasəmən Məmmədovanın atası – Yevlax rayon sakini, Müdafiə Nazirliyinin 702 nömrəli hərbi hissəsində xidmət etmiş, 1971-ci il təvəllüdlü İbrahimov Vəlyəddin Səhrab oğlu 1994-cü il yanvarın 19-da Füzuli rayonu ərazisində gedən döyüşlərdə itkin düşmüş şəxs kimi Dövlət Komissiyasında qeydiyyata alınıb. Şəhid Vəlyəddin İbrahimovun nəşi ailə üzvlərinin istəyi ilə Yevlax şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib.

Hərbi rituallara uyğun dəfn mərasimi Dövlət Təhlükəsizliyi Xidməti, Səfərbərlik üzrə Dövlət Xidməti, Dövlət Komissiyası, İmişli və Yevlax rayon icra hakimiyyətlərinin təşkilatçılığı, şəhid ailəsinin, ictimaiyyətin, Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə həyata keçirilib.

Mərasimdə çıxış edən Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının işçi qrupunun rəhbərinin müavini Eldar Səmədov bildirib ki, aidiyyəti dövlət təşkilatları və Beynəlxalq Qızıl Xaç Komitəsi ilə birlikdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində itkin düşmüş 3889 nəfərin axtarışı aparılır. Azərbaycan Respublikasının işğaldan kənar ərazilərindən təxminən 200 naməlum şəhid məzarı var. Həmin məzarların qeydiyyata alınaraq onların şəxsiyyətinin eyniləşdirilməsi işi Beynəlxalq Qızıl Xaç Komitəsi ilə birlikdə aparılır.

Diqqətə çatdırılıb ki, İmişli rayonundakı "Şəmmədli" qəbiristanlığında müəyyən edilmiş digər 11 naməlum meyit qalığının eyniləşdirilməsi, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı tanınmadan dəfn edilmiş şəxslərə aid meyit qalıqlarının ekshumasiyası işi Dövlət Komissiyası ilə BQXK arasında 2008-ci ildə imzalanmış çərçivə sazişinə uyğun olaraq mərhələli davam etdirilir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Xidmətinin Yevlax rayon şöbəsinin rəisi Elməddin Cəfərov, Qarabağ Müharibəsi Veteranları, Əlilləri və Şəhid Ailələri İctimai Birliyinin Yevlax rayon filialının sədr müavini Mənsur Əliyev çıxış edərək ölkəmizdə Qarabağ müharibəsi veteranlarına, əlillərə və şəhid ailələrinə göstərilən dövlət qayğısından, bu kateqoriyadan olan insanların sosial müdafiəsinin gücləndirilməsi, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlərdən danışıblar.

Çıxış edənlər torpağımızın şəhid qanı ilə Vətən olduğunu bildirib, bütün şəhidlərə Allahdan rəhmət dilənib, onların əziz xatirəsinin daim qəlblərdə yaşayacağını vurğulayıblar.

Vəlyəddin İbrahimovun qızı Yasəmən İbrahimova şəhid qızı olduğu üçün fəxr etdiyini deyib. Atasının nəşinin tapılmasına və Yevlax şəhərində dəfn edilməsinə görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Şəhidin cənazəsi izdihamın müşayiəti ilə Yevlax Şəhidlər qəbiristanlığında əsgəri ənənələrə uyğun olaraq yaylım atəşləri altında torpağa tapşırılıb, məzarı üstünə əklil və tər qərənfillər qoyulub. Şəhidin tabutu üzərinə çəkilmiş üçrəngli Dövlət bayrağı əbədi xatirə olaraq ailəsinə təqdim edilib.

Dəfn mərasimində dövlət himni səsləndirilib.

# Həzi Aslanovun anadan olmasının 110 illik yubileyi münasibətilə silsilə tədbirlərə start verilib

***Yanvarın 22-də görkəmli hərbi xadim, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Əhəd oğlu Aslanovun anadan olmasının 110 illik yubileyi münasibətilə silsilə tədbirlərə start verilib.***

AZƏRTAC xəbər verir ki, həmin gün Azərbaycan Respublikası Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Şəhidlər xiyabanında, general Həzi Aslanovun məzar-abidə kompleksinin önündə xalqımızın igid oğulları sırasında adı qəhrəmanlığın rəmzinə çevrilən, dünyanın faşizmdən qurtulması uğrunda ağır döyüşlərdə mahir hərbi sərkərdə istedadı nümayiş etdirərək hərb salnaməsinə yeni parlaq səhifələr yazan tank qoşunları generalının xatirəsinə həsr olunan anım mərasimi keçirilib.

Tədbirdə Müdafiə Nazirliyinin general, zabit, gizir, kursant və əsgərləri, Təhsil və Mədəniyyət nazirliklərinin, xüsusi təyinatlı təhsil müəssisələrinin, Bakı qarnizonundakı hərbi hissələrin, veteran təşkilatlarının, qəhrəmanın adını daşıyan müəssisələrin, təhsil və mədəni-maarif ocaqlarının nümayəndələri, generalın ailə üzvləri iştirak ediblər.

Əvvəlcə məzar-abidə kompleksi önünə əklillər qoyulub, qəhrəmanın xatirəsi ehtiramla yad edilib, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin hərbi orkestrinin müşayiəti ilə dövlət himni ifa olunub.







“Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 dekabr tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı Müdafiə nazirinin əmri ilə yaradılan təşkilat komitəsinin üzvü, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Həzi Aslanovun hərb tarixində müstəsna xidmətlərindən danışıb. O, Prezidentin Sərəncamının təkcə bir qəhrəmana deyil, ümumiyyətlə, İkinci Dünya müharibəsi illərində müxtəlif cəbhələrdə vuruşan, Qafqazdan Berlinədək şanlı döyüş yolu keçən altı yüz mindən çox Azərbaycan övladının xatirəsinə böyük ehtiramın bariz nümunəsi olmaqla yanaşı, həm də torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərə hər an hazır olan Azərbaycan Ordusunun bütün şəxsi heyətinin, eləcə də gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyət kəsb etdiyini bildirib.



Nəzərə çatdırılıb ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə, eləcə də Kremldə məsul vəzifə tutduğu vaxtlarda xalqımızın tarixinə sonsuz hörmətlə yanaşıb, əsrlər boyu torpaqlarımıza təcavüz edən yadelli işğalçılar qarşısında boyun əyməyən, diz çökməyən xalq qəhrəmanlarının, görkəmli hərbi sərkərdələrin hünər və rəşadətlərini yüksək qiymətləndirib, gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində ata-babaların qəhrəmanlıq ənənələrindən bəhrələnməyi, bu ənənələri davam etdirməyi məsləhət görüb. Ulu Öndər əcdadlarımızın qəhrəmanlıq nümunələrinin bu gün də, gələcəkdə də müstəqil Azərbaycanı qoruyub saxlamaqda, onun müstəqilliyini əbədi etməkdə bizim üçün örnək olduğunu dəfələrlə qeyd edib. Əbədiyaşar Ali Baş Komandan Heydər Əliyevə görə xalq öz qəhrəmanlıq tarixini öyrənmədən, qiymətləndirmədən yeni qəhrəmanlar yetişdirə bilməz. Gələcək qəhrəmanlıqların, igidliklərin təməli tariximizdədir, atalarımızın keçdiyi şanlı döyüş yolundadır.

Xatırlanıb ki, Ulu Öndər nəinki respublikamızda, həmçinin Vətənimizin hüdudlarından uzaqlarda da Azərbaycan oğullarının qəhrəmanlıqlarının təbliği, adlarının əbədiləşdirilməsi, tanıdılması istiqamətində çox mühüm işlər görüb. Məhz Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Krımın Kerç rayonunda, Sapun-Qora yaxınlığında 77-ci, Rostov vilayətinin Taqanroq şəhərinin Sambek yüksəkliyində 416-cı Azərbaycan milli atıcı diviziyalarının şanlı döyüş yollarını əbədiləşdirmək məqsədilə möhtəşəm abidə kompleksləri yaradılıb. Həzi Aslanov, Mahmud Əbilov, Akim Abbasov, Məlik Məhərrəmov və bir çox general və zabitlərin yubileyləri dövlət səviyyəsində qeyd olunub, neçə-neçə Sovet İttifaqı Qəhrəmanının ev-muzeyi yaradılıb və abidələri ucaldılıb.





Anım mərasimində vurğulanıb ki, Heydər Əliyev general-mayor Həzi Aslanovu Böyük Vətən müharibəsində döyüşən, vuruşan Azərbaycan xalqının nümayəndələrindən ən görkəmlisi kimi qiymətləndirərək “O, bu döyüşlərdə həlak olmuş, ancaq öz vətəndaşlıq borcunu yerinə yetirmiş, Azərbaycan xalqının hansı yüksək mənəvi keyfiyyətlərə malik olduğunu dünyaya nümayiş etdirmişdir”, - deyib. Hər il respublikamızda 9 May - Qələbə Günü tədbirləri ulu öndər Heydər Əliyevin iştirakı ilə məhz Həzi Aslanovun məzar-abidəsi qarşısında keçirilən anım mərasimi ilə başlanardı. Bu ənənələr Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir.

Bildirilib ki, “Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası istiqamətində Müdafiə, Təhsil və Mədəniyyət nazirliklərinin birgə tədbirlər planında il ərzində respublikanın bölgələrində, hərbi hissələrdə, təhsil və mədəniyyət müəssisələrində beynəlxalq konfransların, tank heyətləri arasında yarış-müsabiqələrin, fotosərgilərin, teatrlaşdırılmış kütləvi mərasimlərin, vətənpərvərlik filmləri həftəsinin keçirilməsi nəzərdə tutulub. İl ərzində Həzi Aslanovun keçdiyi döyüş yolu və adı ilə bağlı ünvanlara ekskursiyalar təşkil olunacaq, yeni kitablar, albom, plakat və açıqcalar nəşr ediləcək, qəhrəmanın tank və mexanikləşdirilmiş digər zirehli texnikalar sahəsində yenilikləri və hərbi elmi məqalələri əsasında sənədli tədris filmi çəkiləcək. Eləcə də Bakı Bələdiyyə Teatrında Abdulla Qurbaninin “Həzi Aslanov xatirələr işığında” pyesi tamaşaya hazırlanacaq. Bundan əlavə, faşizm üzərində Qələbənin 75 illiyinə həsr olunan beynəlxalq əsgər mahnıları festivalı iştirakçılarının Lənkəran şəhərinə səfəri və festival çərçivəsində qəhrəman həmyerlimizə həsr olunan konsert proqramının təşkili reallaşacaq. Rusiya Federasiyası “Zvezda” televiziya kanalının istehsalı olan “Ordu əfsanəsi Həzi Aslanov” filminin yaradıcı heyəti ilə görüş, respublika musiqi və teatr kollektivlərinin iştirakı ilə ədəbi-bədii gecə, Azərbaycan Dövlət Pedaqoji və İqtisad Universitetlərində konfrans və kütləvi vətənpərvərlik tədbirinin keçiriləcəyi də planlaşdırılıb.

Anım mərasimində Həzi Aslanov irsinin tədqiqi və araşdırılmasında müstəsna xidmətləri olan Əməkdar incəsənət xadimi, tədqiqatçı-jurnalist Musa Bağırov, Respublika Veteranlar Təşkilatı sədrinin birinci müavini polkovnik Cəlil Xəlilov, Aslanovlar ailəsi adından qəhrəmanın nəvəsi Emin Aslanov çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq ediblər.

Tədbir Azərbaycan Bayrağı altında Fəxri Qarovulun Həzi Aslanovun abidəsi önündən təntənəli keçidi ilə başa çatıb.

AZƏRBAYCAN VETERANI

# Cəbhəyanı bölgələrdə Həzi Aslanovun xatirəsi yad olunub

İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun əbədiyyətə qovuşduğu vaxtdan 75 il ötür. Yaşasaydı 110 yaşında idi. Lakin qəhrəman həmyerlimiz qədirbilən xalqımızın yaddaşında 35 yaşlı mübariz bir döyüşçü, yenilməz sərkərdə kimi yaşayır və bundan sonra da yaşayacaqdır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Beyləqan rayonunun İkinci Şahsevən kəndində, “Həzi Aslanov Xatirə bağı”nda Müdafiə Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə qəhrəmanın xatirəsi ehtiramla yad edilib.

Hərbi orkestrin ifa etdiyi “Rekviyem”in sədaları altında hərbi qulluqçular, veteranlar, ictimaiyyət nümayəndələri, gənclər, Həzi Aslanovun və şəhidlərin ailə üzvləri ölməz generalın abidəsi və şəhidlərin xatirə lövhəsi önünə qızılgüllər, qərənfillər düzüblər. Ulu öndər Heydər Əliyevin, Həzi Aslanovun timsalında Böyük Vətən müharibəsi illərində faşizmə qarşı müharibədə həlak olan və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətənin igid övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni ifa olunub.

Azərbaycan Respublikası Prezidentinin “Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında” 2019-cu il 29 dekabr tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı yaradılan Təşkilat komitəsinin üzvü, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani tədbir iştirakçılarını salamlayaraq bildirib ki, respublikamızda Müdafiə nazirinin təsdiq etdiyi Tədbirlər planına əsasən Təhsil və Mədəniyyət nazirlikləri ilə birlikdə silsilə tədbirlər keçirilməkdədir. Tədbirlər ilboyu davam etdiriləcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyevin bu Sərəncamının əhəmiyyətindən danışan A.Qurbani nəzərə çatdırıb ki, işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan Azərbaycan Ordusunun şəxsi heyətinin, eləcə də gənc nəslin ata-babalarımızın, əcdadlarımızın qəhrəmanlıq ənənələri əsasında tərbiyə edilməsi qarşımızda duran əsas vəzifələrdəndir və bu iş dövlətimizin başçısının və Müdafiə Nazirliyi rəhbərliyinin daim diqqət mərkəzindədir. Məhz Prezidentin növbəti Sərəncamı da mühüm əhəmiyyət kəsb edir, xalqımız və Vətən müdafiəçiləri tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb.

General-mayor Mayis Bərxudarov Prezidentin "Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında" Sərəncamından irəli gələn vəzifələrin cəbhəyanı bölgələrdə də uğurla həyata keçirildiyini bildirib. Bir neçə gün öncə Horadiz qəsəbəsində təşkil olunan tədbirdə ön səngərlərdən gələn döyüşçülərlə yerli əhalinin unudulmaz sərkərdənin doğum gününü birlikdə qeyd etməsini ordu ilə xalqın sağlam mənəvi birliyinin təcəssümü kimi qiymətləndirib.

Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı, Qarabağ müharibəsinin veteranı Eyvaz Hüseynov, Beyləqan Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Telman Məstanov və şəhid atası Ələkbər Hüseynov hərbçilərin bu təşəbbüsünü yüksək qiymətləndiriblər.

Həzi Aslanovun nəvəsi Emin Aslanov çıxış edərək göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə, eləcə də



yubiley tədbirlərini yüksək səviyyədə təşkil etdiyinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə, hərbi hissənin komandanlığına Aslanovlar ailəsinin minnətdarlığını çatdırıb.

Füzuli Dövlət Dram Teatrının aktyoru Qaçaq Qarayevin general Həzi Aslanovun qiyafəsində gəlişi, şəhid analarına və Lələtəpə fatehlərinə - igid tankçılara müraciəti tədbir iştirakçılarında qürurlu anlar yaşadıb: “Şəhid anaları, başınızı dik tutun! Mənim anam da müharibədə iki oğul qurban verib. Mənim anam “Vətən sağ olsun!” deyərək ömrünün sonuna qədər el içində başıuca dolanıb. Övladları ilə fəxr edib. Anam inanırdı ki, gələcək nəsillər onun övladlarının da xatirəsini həmişə əziz tutacaq, qəhrəmanlıqlarını unutmayacaqlar. Azərbaycan Ordusunun mətin döyüşçüləri, Aprel döyüşlərinin qəhrəmanları, tankçı dostlarım uğurlarınızdan mənim ruhum da şad olub. Mən Vətəndən uzaqlarda, Rusiya, Ukrayna, Belarus və Pribaltikada döyüşlərdə Azərbaycan oğlunun hansı mənəvi və iradi keyfiyyətlərə malik olduğunu bütün dünyaya göstərdim. İndi növbə sizindir. Torpaqlarımızı mənfur düşməndən azad etməyə hər an hazır olun! Xalqımızı yeni qələbə müjdələri ilə sevindirəcəyinizə inanıram. Qarabağ sizi gözləyir, Vətən əsgəri! Növbə sizindir, uğur olsun, dostlar!”

Döyüşlərdə və Azərbaycan Ordusu şəxsi heyətinin vətənpərvərlik tərbiyəsi işində fərqlənən bir qrup hərbi qulluqçu və mülki şəxsə Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının təsis etdiyi “Həzi Aslanov” yubiley medalı, H.Aslanovun həyat və qəhrəmanlıq yolunu əks etdirən kitablar, bədii və sənədli filmlərin diskləri dəsti albomu təqdim edilib.

İkinci Şahsevən kənd tam orta məktəbinin şagirdlərinin ifasında “Qəhrəmanlar ölmürlər” adlı ədəbi kompozisiya təqdim edilib, “Şəhidlər bulağı”nın açılışı olub və ətrafına həmişəyaşıl ağac tingləri əkilib.

Sonra tədbir iştirakçıları Aprel döyüşləri zamanı Lələtəpə uğrunda döyüşlərdə şəhid olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Ayaz Hüseynovun ailəsinə baş çəkib, Birinci Şahsevən kəndində Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədovun ev-muzeyini ziyarət edərək, büstü qarşısına güllər düzüblər.

Şəhid Ayaz Hüseynovun atası, müharibə iştirakçısı Ələkbər Hüseynov minnətdarlıqla deyib: “Azərbaycan öz müstəqilliyini bərpa edənədək kəndimizdəki kollektiv təsərrüfat Həzi Aslanovun adını daşıyırdı. Bu bağ da o vaxtlar salınıb, kənd əməkçilərinin vəsaiti hesabına abidə ucaldılıb və bura vətənpərvərlik tədbirlərinin keçirildiyi məkana çevrilib. Bu bağ cəbhəyanı bölgənin keşiyində mərdliklə duran hərbi hissə komandirlərinin, əsgər və zabitlərin böyük zəhməti sayəsində yenidən qurulub. Bu təşəbbüs isə oğlum Ayazın Aprel döyüşləri zamanı şəhidliyindən sonra qaldırıldı. Dəfn mərasimində iştirak edən Müdafiə Nazirliyinin rəsmiləri, hərbi hissənin komandiri söz verdilər ki, burada yenidən quruculuq-abadlıq işləri aparılacaq, Həzi Aslanovun və şəhidlərimizin adına layiq yeni bir mənzərənin şahidi olacaqsınız. Mən bu gözəl məkanı yenidən bizə bəxş etdiyinə görə zəhməti olan hər kəsə kəndimizin əhalisi, xüsusilə də şəhid ailələri, müharibə veteranları adından dərin minnətdarlığımı bildirirəm”.

Həmin gün cəbhəyanı bölgənin bütün hərbi hissələrində İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anım tədbirləri keçirilib.

## Gəncə qarnizonunda Həzi Aslanovun 110 illik yubileyinə həsr olunan kinofilmlər festivalı başlayıb

“Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 dekabr tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası istiqamətində Müdafiə nazirinin təsdiq etdiyi Tədbirlər Planına əsasən, Gəncə qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzində iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun xatirəsinə həsr olunan bədii və sənədli kinofilmlər həftəsinə start verilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin rəsmilərinin, qarnizondakı hərbi hissələrin şəxsi heyətinin, müharibə veteranlarının və qəhrəmanın ailə üzvlərinin iştirak etdikləri tədbirdə təşkilat komitəsinin üzvü, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, ehtiyatda olan polkovnik Abdulla Qurbani Prezident Sərəncamının əhəmiyyətindən, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərə hər an hazır olan Azərbaycan Ordusunun bütün şəxsi heyətinin, eləcə də gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsində mühüm rolundan danışıb.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin general Həzi Aslanovun timsalında faşizmə qarşı Böyük Vətən müharibəsində mərdliklə vuruşaraq həlak olan və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Qeyd edilib ki, qəhrəmanlar heç vaxt ölmürlər. Onlar xatirələrdə, ürəklərdə, o cümlədən sənət əsərlərində özlərinə əbədiyaşarlıq tapır və ölümlərindən sonra da gələcək qəhrəmanlıqların yaranması üçün örnək olurlar.

Nəzərə çatdırılıb ki, həftə ərzində müxtəlif illərdə Həzi Aslanov haqqında çəkilmiş 30-dan çox sənədli və bədii



film nümayiş etdiriləcək, aktyor, rejissor, operator, ssenari müəllifi və digər yaradıcı heyət üzvləri ilə görüşlər və filmlərin müzakirələri keçiriləcək.

Böyük Vətən müharibəsi illərində Həzi Aslanov ilə Belarus cəbhəsində bir yerdə vuruşan 98 yaşlı müharibə veteranı Tofiq Hüseynov, Gəncə şəhəri Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, ehtiyatda olan zabit Yusif Məmmədov çıxış edərək Həzi Aslanovun xatirəsinin əbədiləşdirilməsində, görkəmli sərkərdənin keçdiyi hərbi şöhrət yolunun təbliğində ulu öndər Heydər Əliyevin tarixi xidmətlərini qeyd ediblər. Bu ənənənin Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi minnətdarlıqla diqqətə çatdırılıb.

Gəncə Dövlət Dram Teatrının aktyoru, atası Böyük Vətən müharibəsindən qayıtmayan Xalq artisti Məmmədəli Balayev Həzi Aslanova həsr olunan vətənpərvərlik şeirlərindən nümunələr söyləyib. Azərbaycan Ordusunun sıralarında Həzi kimi oğulların bu gün yüzlərlə, minlərlə olduğunu, xalqımızın bundan böyük qürur duyduğunu vurğulayıb.

Sərkərdənin nəvəsi Emin Aslanov babası haqqında nənəsindən, atasından və əmisindən eşitdiyi xatirələri tədbir iştirakçıları ilə bölüşüb. Prezidentin bu Sərəncamının təkcə Həzi Aslanova deyil, müharibədə iştirak edən 600 mindən çox Azərbaycan övladına, müasir müstəqil Azərbaycanın keşiyində mərdliklə dayanan güclü və qüdrətli Azərbaycan Ordusunun hər bir əsgərinə dövlət səviyyəsində göstərilən diqqət və qayğının, hörmət və ehtiramın bariz nümunəsi olduğunu deyib. O, dövlətimizin başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə Aslanovlar ailəsinin minnətdarlığını bildirib.

Hərbi birliyin komandanlığı adından çıxış edən zabit Rasim Manafov kinofilmlər həftəsinin, həmçinin tədbirlər planında nəzərdə tutulmuş digər tədbirlərin də şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik hissinin daha da yüksəldilməsində müsbət təsir göstərəcəyinə əminliyini bildirib və tədbirin təşkilatçılarına komandanlıq adından təşəkkür edib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəis müavini, Əməkdar artist, hərbi-vətənpərvərlik mahnıların mahir ifaçısı zabit Cahangir Qurbanovun ifa etdiyi, bəstəkar Azad Zahidin Abdulla Qurbaninin sözlərinə yazdığı Həzi Aslanova həsr olunan “Həzilər yurdu” və “Volqoqrad” mahnılarını tamaşaçılar alqışlarla qarşılayıblar.

Həzi Aslanova həsr edilən kinofilmlər həftəsinin ilk günü “Vilnüsün azad edilməsi” 1944-cü ilin cəbhə buraxılışı, Bakı Kinostudiyasının 1945-ci il istehsalı olan “General Həzi Aslanov” və “Həzi Aslanovun dəfn mərasimi” adlı sənədli film və xronikalar nümayiş etdirilib.

Gəncə qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinə qəhrəman sərkərdə haqqında müharibə illərindən bu günə qədər çəkilən bədii və sənədli filmlərin diskləri dəsti albomu və kitablar təqdim edilib.

# Hər bir veteran bizim üçün əziz və qiymətlidir

## Respublika Veteranlar Təşkilatının əməkdaşlarının İkinci Dünya müharibəsinin qocaman veteranları ilə səyyar görüşləri

Bu gün əminliklə deyə bilərik ki, zamanın qanlı-qadalı sınaqlarından alnı açıq çıxmış veteranlarımız gənclərimiz üçün örnəkdir. Onların şərəfli həyat və fəaliyyətləri hər birimiz üçün nümunədir.

Azərbaycanda veteran hərəkatının bayraqdarı olan Respublika Veteranlar Təşkilatı fəaliyyətini günü-gündən daha da artırır. Respublika Veteranlar Təşkilatı ölkənin ictimai-siyasi həyatında fəallığı ilə seçilməklə yanaşı veteranların yanında dayanır, onların maddi-sosial vəziyyətinin yaxşılaşdırılması üçün lazımı tədbirləri həyata keçirir, müvafiq dövlət qrumları ilə yaxından əməkdaşlıq edir, əlaqələrini genişləndirir.







Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynovun müvafiq tapşırığına əsasən Təşkilatın əməkdaşları İkinci Dünya müharibəsinin veteranları ilə görüşür, Qələbənin 75 illiyi münasibəti ilə təbrik edirlər. Onlara maddi yardım və hədiyyələr təqdim olunur. Bu istiqamətdə həyata keçirilən silsilə tədbirlər həm Bakıda, həm də Respublikanın digər bölgələrində uğurla davam etdirilir. Respublika Veteranlar Təşkilatının rəhbərliyinin tapşırığına əsasən Təşkilatın əməkdaşları II Dünya müharibəsi veteranları Balakən rayonunda Perekrestov İosif Pavloviç, Rəcəbov Zahid Mehdi oğlu, İsmayıllı rayonunda Fətullayev Balakişi Səlim oğlu, Əhmədov Müsənnif Rufulla oğlu, Namazov Şura Xanlar oğlu, Ağayev Həbullah Dosməmməd oğlu, Şəki rayonunda Əhmədov Şahverdi Behbud oğlu, Paşayev Zahid Yunus oğlu, Cabbarov Müzəffər Heydər oğlu,Tağıyev Süleyman Ənnağı oğlu, Babayev Hacı Mürsəl oğlu, Zaqatala rayonunda və Qəbələ rayonunda Ziyadov Qurban Seyid oğlu , Alamməmdov Fətulla Səbzalı oğlu, Rəsulov Sadəddin Məhi oğlunun evlərində görüşlər keçirilmişdir. Veteranların həyat-məişət şəraiti ilə tanış olan nümayəndə heyəti onların problemlərinin həll edilməsi istiqamətində müvafiq qeydlər götürürlər. Səmimi söhbət əsnasında keçdikləri şərəfi döyüş yolu və xatirələri dinlənilir. Qəhrəman veteranlarımızın maraqlı söhbətləri, qonaqpərvərliyi insanda mübarizliyi, gələcəyə inamı daha da atırır. Şirin, duzlu-məzəli əhvalatlar sanki insanı keçmişə qaytarır, insan əzmini nümayiş etdirir.













Sevindirici haldır ki, veteranlar hər zaman olduğu kimi, bu görüşlərdə də dövlətçiliyimizə sadiq olduqlarını, gənc nəslin vətənpərvər yetişdirilməsində əllərindən gələnləri əsirgəməyəcəklərini dilə gətirirlər, Respublika Veteranlar Təşkilatının və rayon Veteran Təşkilatlarının fəaliyyətlərini yüksək qiymətləndirdilər. Onlar həm ölkəmizin Prezidenti cənab İlham Əliyevə, həm də Respublika Veteranlar Təşkilatının rəhbərliyinə göstərilən













yüksək diqqət və qayğıya görə dərin minnətdarlıqlarını bildirirlər.

Qeyd edək ki, Respublikamızın bütün rayonlarında veteranlarla keçirilən görüşlər əsasında Qələbənin 75 illiyi münasibətilə xüsusi buraxılış hazırlanacaq, mətbuat vasitələrində geniş işıqlandırılacaq.

AZƏRBAYCAN VETERANI

## Böyük Vətən müharibəsi iştirakçıları - Timçenko İvan İvanoviç 102 və Həsənov Tamleyxa Abbas oğlunun 99 yaşları münasibəti ilə təbrik edirik

Böyük Vətən Müharibəsi iştirakçıları - Timçenko İvan İvanoviçin 102 və Həsənov Tamleyxa Abbas oğlunun 99 yaşlarının tamam olması münasibətilə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr



Veteranları Təşkilatının sədr müavini polkovnik Cəlil Xəlilov və Təşkilatın bir qrup əməkdaşları onlarla görüşüb təbrik etmişlər.

Görüş zamanı C.Xəlilov Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov adından səmimi təbrikləri veteranlara çatdırmış, keçdikləri şərəfli döyüş yollarının gənc nəslə örnək olduğunu bildirmişdir.

C.Xəlilov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müharibə veteranlarına daim diqqət və qayğı göstərdiklərini qeyd etmişdir. Müharibə veteranları İvan Timçenko və Tamleyxa Həsənov göstərilən diqqətə görə möhtərəm Prezidentə, Birinci vitse-prezidentə, eləcə də Veteranlar Təşkilatının rəhbərliyinə dərin minnətdarlıqlarını bildirmişlər.



Daha sonra C.Xəlilov Respublika Veteranlar Təşkilatının sədri adından Təbrik Məktublarını, Fəxri Fərmanları, hədiyyələri İ.Timçenko və T.Həsənova təqdim etmiş, xatirə şəkilləri çəkilmişdir.

## Qəhrəman veteran Fatma Səttarova



O, 1922-ci ilin yanvar ayında Bakıda dünyaya gəlib. Ailənin tək övladı olsa da, 19 yaşında müharibəyə yollanıb. Fatma xanım: "-Sentyabrın əvvəli idi. Bizi əsgərlərlə birgə eşelonlarla cəbhəyə yola saldılar. Moskva ətrafındakı döyüşlərə gəlib çıxdıq. Briqadada 2 tibb bacısı və 3 sanitar vardı. Başımıza bombalar yağırdı. Çox çətin idi. Naz-qəmzə ilə böyümüş 19 yaşında qızcığaz birdənbirə müharibənin ortasına düşmüşdü. Hara baxırdım, qan görürdüm. Vəziyyət çox gərgin idi. Almanlar az qalmışdı Moskvanı alsınlar. Sonra almanları Moskva ətrafından qovmağa başladılar. Ordu döyüşə-döyüşə Leninqrada gəlib çatdı. Almanlar Leninqradı mühasirəyə almışdılar. Şəhərə cəmi iki yol qalmışdı: Ladoqa gölü və havadan. Biz Ladoqa gölü ilə hərəkət edib şəhərə daxil olduq. Alman təyyarələri hər tərəfi bombalayırdı. Əsgərlər təkcə bombardmandan deyil, həm də aclıqdan ölürdülər. Bir də baxırdın ki, yeridiyi yerdə kimsə yıxılıb öldü. Bizə gündəlik 50 qram qara çörək və jımıx verirdilər. 4 ay yarım Leninqradda blokadada qaldım. Aclıqdan bir dəri-bir sümük qalmışdım. Artıq 20 yaşım vardı. Müharibə ilə bərabər mən də böyümüşdüm. 19 yaşındakı qızcığaz deyildim. Təcrübəli tibb bacısı idim. Ayağımda ağır çəkmələr, çiynimdə özümdən ağır çanta bir səngərdən digərinə qaçırdım. Sovet ordusu blokadanı açandan sonra biz yaralıları balaca gəmilərlə Ladoqa gölü vasitəsi ilə Leninqraddan çıxarmağa başladıq. Məni Stalinqrad cəbhəsinə göndərdilər. Ordu Berlinə tərəf irəliləyirdi. Blokadada olduğum müddətdə həddindən artıq zəifləmişdim, Macarıstana çatanda xəstələndim və ordudan tərxis olundum."

1945-ci ilin fevralında Fatma Səttarova Bakıya, ailəsinin yanına geri dönür. 3 ay sonra mayın 9-da sovet ordusu faşizmin üzərində qələbə çalır.

Böyük Vətən müharibəsi veteranı Fatma Səttarova ziyalı kimi ölkəmizin ictimai-siyasi həyatında, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi işində fəal iştirak edir.

Fatma xanımı bütün Azərbaycan ictimaiyyəti və xalqı yaxşı tanıyır. Ölkəmizdə veteran hərəkatının inkişafında F.Səttarovanın töhfələri danılmazdır. O, müharibə və əmək veteranı kimi Respublika Veteranlar Təşkilatının keçirdiyi tədbirlərdə fəal iştirak etməklə, onun tanıdılmasında əməyini və gənclərin Vətənə, dövlətə sədaqət ruhunda tərbiyəsində öz biliyini əsirgəmir. Fatma Səttarovanın həyatı bu gün gənc nəslin Azərbaycanın layiqli vətəndaşları kimi yetişməsində dəyərli nümunələrdən biridir. O, Azərbaycanı MDB ölkələrində, o cümlədən Rusiya, Belarus, Ukraynada İkinci Dünya müharibəsi ilə bağlı keçirilən tədbirlərdə layiqincə təmsil edərək ölkəmiz, o cümlədən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında fəal rol oynayır.

Ad günü münasibəti ilə Nərimanov Rayon İcra Hakimiyyətinin və Respublika Veteranlar Təşkilatının rəhbərliyi Fatma xanımı təbrik edib edirlər.

Rayonun ictimai-mədəni həyatında da böyük xidmətləri olan Fatma Səttarovanın gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində yaxından iştirakı təqdirəlayqdir. Fatma Səttarovanın keçdiyi həyat yolu, təcrübəsi Azərbaycan gənclərinə nümunədir.

## "ŞƏRƏF NİŞANI" ORDENLİ VETERAN HÜSEYN HƏSƏNOV-87

Yanvarın 24-də həmyerlimiz, Zərdab rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, "Şərəf nişanı" ordenli Hüseyn Həsənovun 87 yaşı tamam oldu.

Keçdiyi keşməkeşli, zəngin, mənalı həyat yolu hər kəsə örnək ola biləcək Hüseyn Həsənov 1933-cü il yanvarın 24-də Zərdab şəhərində anadan olub.

Ömrü boyu doğma xalqa, vətənə, şərəflə, ləyaqətlə xidmət edən bu fədakar, müdrik və cəfakeş insan Zərdabın qabaqcıl, vətənsevər ziyalılarından olan partiya veteranı Dəmir Həsənovun övladı olmağı ilə həmişə fəxr edib. Çünki daim məsul vəzifələrdə çalışan Dəmir Həsənov 1930-cu illərdə Zərdabın inkişafı, tərəqqisi naminə çox işlər görüb, sözün həqiqi mənasında mübarizə aparıb. Amma Dəmir kişi ömrünün cavan çağlarında vəfat edib və başsız qalan ailənin ağırlığı, evin böyük oğlu olan 11 yaşlı Hüseyn Həsənovun çiyinlərinə düşüb. Beləliklə, partiya və ictimaiyyət fəalı olan Dəmir kişinin 11 yaşlı övladı Hüseyn Zərdab rayon partiya komitəsində kuryer vəzifəsinə götürülüb.

Üzərinə düşən işləri ləyaqətlə, bacarıqla yerinə yetirən Hüseyn Həsənov komsomol və həmkarlar təşkilatlarının fəal üzvü olmuş, Bakı Ali Hərbi Məktəbini bitirərək orduda kapitan rütbəsinə yüksəlmişdir.

SSRİ-nin I dərəcəli alpinisti tituluna da sahib olan həmyerlimiz 1957-ci ildə hərbi xidmətdən kapitan rütbəsində doğma Zərdaba qayıtmış və rayon partiya komitəsinin təlimatçısı vəzifəsinə təyin olunmuşdur. Daha sonra o, rayon komsomol komitəsinin katibi, rayon partiya təşkilatı nəzarət komitəsinin sədri, raykomun vahid partiya uçotu şöbəsinin müdiri, Zərdab rayonu Ucara birləşdirildiyi illərdə Ucar rayon kənd istehsalat partiya komitəsi təşkilat şöbəsinin təlimatçısı vəzifələrində çalışmış, paralel olaraq Bakı Dövlət Universitetinin tarix fakültəsində və Sov. İKP MK yanında Bakı Ali Partiya Məktəbində ali təhsil almışdır.

Sonrakı dövrdə, özü də uzun illər Hüseyn müəllim Zərdab rayon partiya komitəsinin II katibi vəzifəsində işləmişdir.

Zaman-zaman müxtəlif məsul vəzifələrdə çalışan, o cümlədən Zərdab rayon Sığorta müfəttişliyinin rəisi, müstəqillik dönəmində rayon icra hakimiyyəti başçısının Zərdab şəhəri üzrə nümayəndəsi, sahibkarlıq və elm-istehsalat müəssisələri müstəqil həmkarlar ittifaqı Zərdab rayon komitəsinin sədri, AzərTac-ın bölgə müxbiri, "Əkinçi"



qəzetinin ştatdankənar müxbiri olaraq səmərəli fəaliyyət göstərən Hüseyn müəllim Sovet İttifaqı marşalları K. Jukovun və A. Konevin fəxri fərmanları, "Şərəf nişanı" ordeni, 20-yə yaxın medal və döş nişanı, 100-ə yaxın fəxri fərman və mükafatlarla təltif edilmişdir.

Hüseyn müəllim o xoşbəxt insanlardandır ki, 8 dəfə ümummilli lider Heydər Əliyevlə, 4 dəfə isə Prezident cənab İlham Əliyevlə görüşüb.

87 yaşın mübarək, Hüseyn müəllim! Allah sizə və ömür-gün yoldaşınız, xeyirxah, fədakar tibb veteranı olan Minirə xanımla bərabər 100 yaşınızı böyük təntənə ilə qeyd etməyi nəsib eləsin.

# Zərdabın igid oğullarından Cəfərqulu Cəfərov



Cəfərqulu Əziz oğlu Cəfərov 1920-ci il mayın 5-də Zərdab rayonunun, Kür sahilində yerəşən İsaqbağı kəndində doğulub.

1940-cu ilin iyununda pedaqoji məktəbi bitirdikdən sonar Sovet Ordusuna əsgərliyə çağırılıb.

Böyük Vətən müharibəsində üç dəfə yaralanıb, bununla belə, faşizmin beşiyi olan Berlinə qədər vuruşa-vuruşa gedib. Böyük Vətən müharibəsinin ilk günündən qələbəyə qədər Sovet ordusunun Qərb və Belarusiya cəbhələrində alman faşistlərinə qarşı döyüşlərdə iştirak etmişdir.

1945-ci ildə Qərb cəbhəsində göstərdiyi şücaətlərə görə -II Dərəcəli Vətən Müharibəsi ordeni, 1943-cü ildə "İgidliyə görə", 1945-ci ildə "Berlin üzərində Qələbəyə görə", "SSRİ Silahlı Qüvvələrinin 50 illiyi" medalları və başqa orden, medallarla təltif olunub.

Hərbi karyerası dövründə Sovet Ordusunun mayoru rütbəsinə yüksələn bu insan müharibədən sonra Polşanın Bıdqoşşensk qəzasında hərbi komendantın köməkçisi vəzifəsində işləyib və bütün müharibəni cəbhələrdə od-alov içərisində keçirən polyak əsilli hərbi həkim Yekaterina Lobanokad soyadlı xanımla ailə qurub.

Bu cütlüyün nigah mərasimi 1946-cı il iyunun 20-də Polşanın Poznan şəhərində Sovet Konsulluğunda keçirilib və rəsmiləşdirilib.

1946-cı ilin oktyabrında ordudan tərxis olunan Cəfərqulu Cəfərov xanımı ilə, böyük arzularla və ümidlərlə Zərdaba doğma İsaqbağı kəndindəki ata yurduna qayıdıb.

Çox təəssüf ki, bəzi vəzifəli xəbis məmurlar doğulub-böyüdüyü kənddə və rayonda ona yad, kənar şəxs kimi hər addımda əngəllər yaradıblar.

Şahidlər deyirlər ki, nədənsə, o illərdə də əksər səlahiyyətli şəxslər daha savadlı, daha cəsarətli insanları mümkün qədər özlərindən uzaqlaşdırmağa, bezdirməyə, el-obasından, vətənindən didərgin salmağa çalışırdılar və təəssüf ki, buna nail olurdular.

Cəfərqulu Əzizoğlu da Zərdabdan didərgin salınır və küskün bir əhvalla, xanımı Yekaterinanın uzaq qohumlarının yaşadıqları Belarusun Minsk vilayətindəki şəhər tipli Rudensk qəsəbəsinə getməyə məcbur olur.

Yekaterina Kirillovna Lobanok-Cəfərova diş həkimi imiş və müharibədən sonra uzun illər Rudensk diş poliklinikasında stomatoloq işləyib.

Qabiliyyəti, istedadı və halal zəhməti ilə hər zaman, hər yerdə başqalarından seçilən Cəfərqulu Cəfərov isə ilk illərdə həm zavodda çalışıb, həm də Minsk Xalq Təsərrüfatı İnstitutunda təhsil alıb.

Ali məktəbi bitirəndə o, Rudenskdəki Torf zavoduna, sonra da həmin qəsəbədəki Sement zavoduna direktor təyin olunur, əmək karyerasını Rudensk Sənaye kombinatında direktor vəzifəsində çalışmaqla davam etdirir.

1970-ci ildə o, Minsk Vilayət İcraiyyə Komitəsində şöbə müdiri vəzifəsinə irəli çəkilib və ömrünün sonuna qədər bu vəzifədə çalışıb.

Həyatı barədə yalnız son dövrlərdə dəqiq məlumatlar aldığımız həmyerlimiz SSRİ İxtiraçılar və Səmərələşdiricilər Cəmiyyətinin üzvü olub, dəfələrlə Rudensk rayon Sovetinin deputatı seçilib.

Qızı Elmira Cəfərova 1947-ci ildə doğulub, elektron-hesablama maşınları mühəndisidir.

Oğlu, 1951-ci il təvəllüdlü Əziz Cəfərov isə avtomobil mühəndisidir.

Övladları azərbaycanlı olmalarından qürur duyurlar.

Cəfərqulu 1973-cü il noyabrın 9-da, həyat yoldaşı Yekaterina xanım isə 2004-cü il noyabrın 9-da vəfat ediblər.

Ömrünün sonuna qədər C.Cəfərov doğma vətənlə heç vaxt əlaqəni kəsməmiş, yaşadığı doğma kəndini dəfələrlə ziyarət etmişdir. Onun əhali arasında böyük hörmət qazanmağı bacarmış, qəhrəman kimi qarşılanmışdır.



Bu cür həmyerlilərimiz və fəxrimiz olmuş insanların xatirəsini əbədiləşdirmək və qəhrəman kimi unudulmaması üçün əlimizdən gələni etməliyik.

C.Cəfərov barəsində toplanmış informasiyalar, hərbi arxiv onun cəbhə yoldaşı olmuş insanlar və yaxın qohumlarından əldə edilmişdir.

Rəhimov Rauf
Zərdab şəhər sakini

# 82 yaşlı veteranın mənalı və şərəfli ömür yolu

Həyat qəribə paradokslarla doludur. Bəzən sənin sadədən də sadə tanıdığın bir insanın keçdiyi həyat yolu, əmək fəaliyyəti ilə tanış olduqda, onun insanpərvərliyinə, yaradıcılıq və təşkilatçılıq qabiliyyətinə, içindəki Vətən, ocaq sevgisinə heyran qalırsan. O anda düşünürsən: "Bu qədər enerji, güc bu insanda hardandır?" Və onu gec tanıdığına sadəcə, təəssüf edirsən. Unudulmaz şairimiz Bəxtiyar Vahabzadənin məşhur misraları yada düşür: "Yaşamaq yanmaqdır, yanasan gərək."

Etiraf edək ki, çoxları yanaraq yaşamırlar, yaşayaraq yanırlar. Yanaraq yaşamağı Tanrı hər kəsə nəsib etmir. Və heç bir şübhəsiz ki, belələri Tanrının ən xoşbəxt bəndələrindəndir. Düşünürəm ki, bu yazımın qəhrəmanı Cəmaləddin Zeynalov məhz bu cür ömür boyu Vətənə, xalqa xidmət etmək amalı ilə yanaraq yaşayan insanlardandır.

Cəmaləddin Atamalı oğlu Zeynalov 1938-ci ilin fevral ayının 3-də Ağsu rayonunnun Kəndoba kəndində anadan olmuşdur.

C.A. Zeynalov orta məktəbi bitirdikdən sonra, 1957-ci ildə Xalq Təsərrüfat İnstitutuna daxil olaraq 1961-ci ildə institutu əyani bitirərək iqtisadçı ixtisası almışdır. İlk əmək fəaliyyətinə "Azərkəndtexnika" birliyinin Ağsu rayon şöbəsində baş iqtisadçı işləməklə başlamışdır. Həmin ildə Ağsu rayon Komsomol Komitəsinin ştatdankənar katibi seçilmişdir. Bu iş onda komsomol işinə həvəsi artmışdır. Yüksək təşkilatçılıq qabiliyyətini hiss edən rayon rəhbərliyi, onu daha yüksək vəzifəyə irəli çəkmiş, Ağsu rayon Komsomol Komitəsinin birinci katibi seçmişlər. Komsomol komitəsinə rəhbərlik etdiyi dövrdə gənclərin təsərrüfatın müxtəlif sahələrində qazandıqları nəaliyyətlərə görə Azərbaycan LKGİMK-nin Keçici Qırmızı bayrağına layiq görmüşdür.

1964-cü ilin dekabr ayında Ağsu rayon Partiya Komitəsində təlimatçı vəzifəsinə irəli çəkilmişdir. Rayon partiya komitəsində xeyli müddət işlədikdən sonra onu 1966-cı ilin fevral ayından etibarən rayonun yeni təşkil olunmuş "Komsomol" kolxozuna sədr vəzifəsinə seçmişlər. Bu vəzifədə 1971-ci ilin fevral ayına kimi işləmişdir. Sədr işlədiyi dövr kolxoz rayonun ən qabaqcıl təsərrüfatlarından olmaqla bir neçə dəfə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin iştirakçısı olmuşdur.

C.A. Zeynalov Ədliyyə Nazirliyi nəzdində ixtisasartırma kursu keçərək 1971-1974-cü illərdə Ağsu rayon Kənd Təsərrüfatı idarəsində baş hüquq məsləhətçisi işləmişdir. 1974-1978-ci illərdə Ağsu rayon Sovxozlar birliyinin plan şöbəsinə rəhbərlik edərək həmin təşkilatda baş iqtisadçı vəzifəsində işləmişdir. 1979-1985-ci illərdə o, daha yüksək vəzifəyə məsləhət bilinərək Ağsu rayon Süd Emalı Zavoduna direktor təyin etmişlər. Həmin dövrdə rayonun maldarlıq sahəsi yüksək səviyyədə inkişaf edərək, rayon süd istehsalına görə Azərbaycan KPMK-nin və Nazirlər Sovetinin Keçici Qırmızı bayrağına layiq görmüşdür.

Ömrünün çoxunu öz ixtisası üzrə işləyən Cəmaləddin Zeynalov 1985-1999-cu ilə kimi Ağsu rayon Aqrar Sənaye Birliyində aparıcı mütəxəssis kimi fəaliyyət göstərmişdir. Eyni zamanda 1996-1999-cu ilə kimi Ağsu rayon Aqrar Sənaye Birliyi üzrə Yeni Azərbaycan Partiyası ilk təşkilatın sədri olmuş, partiyanın boy sıralarının artırılmasında və yerlərdə bir ictimayyətçi kimi YAP ilk təşkilatlarının yaradılmasında xüsusi fəallıq göstərmişdir.

1988-ci ildə Əmək Veteranı fəxri adına layiq görülərək, Əmək Veteranı medalı ilə təltif edilmişdir. 1999-cu ildən yaşa görə təqaüdə çıxmışdır. 2005-ci ildən etibarən dövlət qulluqçusu kimi təqaüd alır. 2008-ci ilin mart ayından rayon Müharibə, Əmək, Silahlı Qüvvəllər və Hüquq Mühafizə Orqanları Veteranları Təşkilatına sədr məsləhət bilinmiş, Respublika Veteranlar Təşkilatının 2010-2012-ci illər və 2013, 2018-ci il tarixli Ağsu rayon İcra Hakimiyyətinin qərarları ilə gənclərdə hərbi vətənpərvərlik ruhunun yüksəldilməsində, veteranların huquqlarının müdafiə olunmasında və rayon veteranlar Təşkilatında xüsusi fəaliyyətinə görə fəxri fərmanlara layiq görülmüşdür. Ağsu rayon Veteranları Təşkilatının VI, VII, və VIII, IX konfranslarında yenidən rayon Veteranlar Təşkilatının sədri seçilmişdir.

Veteranlara göstərilən diqqət və qayğıya görə Respublika Veteran Təşkilatı onu "Veteran həmrəyliyi" medalı ilə təltif etmişdir. Bundan əlavə C.A.Zeynalov gənclər arasında vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi ilə əlaqədar fəaliyyəti Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən yüksək qiymətləndirilərək 5 sentyabr 2017-ci il tarixli təşkilatın rəyasət heyətinin qərarı ilə Həzi Aslanov 100 illik medalı ilə və Respublika Veteranlar Təşkilatının yubiley medalı ilə təltif edilmişdir. C.A.Zeynalov bir sıra çoxlu fəxri diplomlara layiq görülmüşdür.

Hörmətli Prezidentimiz cənab İlham Əliyevin 27 may 2019-cu il tarixli 1205 saylı Sərəncamına əsasən "Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin 100 illik (1918-2018) yubiley medalı ilə" təltif edilmişdir.



C.A.Zeynalov Təşkilatı rəhbərlik etdiyi dövrdə onun fəaliyyətini gücləndirmiş, veteranların dəqiq siyahısı dürüstləşdirilmiş, daimi komissiyaların fəaliyyətinə nəzarət gücləndirilmişdir. Rayon Veteranlar Təşkilatı veteranlara daima diqqət və qayğı göstərməklə onlarla daim yaxın təmasda olur, veteranların hüquqlarının qorunması sahəsində, gənclərdə vətəndaşlıq və vətənpərvərlik ruhunun yüksəldilməsində çox işlər görür. Respublika Veteranlar Təşkilatı onun fəaliyyətindən yüksək səviyyədə razılıq edir. C.A.Zeynalov ailəlidir. Onun 6 övladı hamısı ali təhsillidir. Müxtəlif peşəyə sahibdirlər. C.Zeynalovun 18 nəvəsi və 8 nəticəsi vardır. Nəvələrdən 7 nəfəri bakalavr və magistr elmi dərəcə almaqla müxtəlif peşə sahibləridir. Hazırda Nəvələrdən 8 nəfəri ali məktəblərdə təhsil alırlar. Bunlardan 4 nəfəri Türkiyədə Ankara şəhərində Həcət-Təpə və İstanbul Tibb Universitetində təhsil alırlar.

Cəmaləddin Atamalı oğlu Zeynalovun 3 fevral 2020-ci il tarixdə 82 yaşı tamam olur. Onu ad günü münasibətilə yaxınları, dostları təbrik edir, ona uzun ömür möhkəm can sağlığı arzulayırıq.

VahidAtakişiyev
Ağsu rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının təftiş komissiyasının sədri, müharibə və hüququ-mühafizə orqanı veteranı

AZƏRBAYCAN VETERANI

# Holokost Qurbanlarının Beynəlxalq Anım Günü Bakıda qeyd olunub




Yanvarın 27-də Bakıda Beynəlxalq Holokost Qurbanlarının Anım Günü ilə əlaqədar mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən Avropa Yəhudilərinin Bakı Dini İcmasının sədri Aleksandr Şarovski yəhudi xalqına qarşı törədilən soyqırımdan danışıb. Bildirib ki, yəhudi xalqı milli mənsubiyyətinə görə soyqırımına məruz qalıb. Ancaq şər qüvvələr öz cəzalarını alıblar.

Aleksandr Şarovski qeyd edib ki, Azərbaycan yəhudi xalqının təhlükəsiz şəraitdə yaşadığı ölkədir. İkinci Dünya müharibəsi zamanı da onlar ölkəmizdə tam təhlükəsiz şəraitdə yaşayıblar.




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, altı milyon günahsız insanın ancaq dini və milli mənsubiyyətinə görə qətlə yetirilməsi dəhşətli hadisədir. Bu hadisələr hər zaman insanları çox təsirləndirəcək. Yəhudi xalqının, Azərbaycan yəhudilərinin və həmvətənlərimizin dərdini, qəmini dərindən anlayırıq. Əlbəttə ki, faciənin əhatə dairəsi böyük və ya kiçik olmur. Faşizm, ksenofobiya bu gün də yaşayır. Bu, bəşəriyyətin faciəsidir.

Komitə sədri qeyd edib ki, XX əsrin sonlarında belə bir faciə Azərbaycan xalqının da başına gətirilib. Günahsız insanlar məhz azərbaycanlı olduqlarına görə Xocalıda qəddarlıqla qətlə yetiriliblər.

Sonra çıxış edən İsrailin Azərbaycandakı səfiri Corc Dik bildirib ki, bu gün tək Holokost qurbanlarının deyil, faşizm qurbanlarının da xatirəsi anılır. Bu gün, həmçinin yəhudiləri zülmdən azad etmək üçün özünü qurban vermiş azərbaycanlıların da xatirəsi yad edilir. Bildirib ki, irqçiliyə görə törədilən belə cinayətlər təkcə bir xalq üçün deyil, bütün bəşəriyyət üçün təhlükədir. Bu təhlükəni bir daha yaşamamaq, bundan yayınmaq üçün keçmişi unutmamaqla gələcəyi qurmaq lazımdır. Tolerant birgəyaşayışın alternativi yoxdur.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, Holokost qurbanlarının xatirəsi hər il anılır. Yetmiş beş il bundan əvvəl baş verən hadisə beynəlxalq ictimaiyyətdə ciddi narahatlıq doğurur. Ancaq insanlıq bundan kifayət qədər dərs götürməyib. Çünki XX əsrin sonlarında Xocalı faciəsi törədildi. Holokostu və Xocalını unutmayaq!.

Avropa yəhudiləri icmasının baş ravini Şeneyer Seqal yəhudi xalqının İkinci Dünya müharibəsi zamanı üzləşdiyi faciədən bəhs edib. O əlavə edib ki, Holokost dünya ictimaiyyətinin üzləşdiyi bəşəri cinayətdir.

Sonra Holokost qurbanlarının xatirəsinə həsr olunmuş musiqili kompozisiya nümayiş etdirilib.

Daha Sonra Holokost qurbanlarının xatirəsinə ehtiram olaraq şam yandırılıb və dualar oxunub.

Xatırladaq ki, BMT Baş Assambleyası tərəfindən 2005-ci il noyabrın 1-də qəbul olunmuş müvafiq qətnaməyə əsasən hər il yanvarın 27-si Beynəlxalq Holokost Qurbanlarının Anım Günü kimi qeyd edilir.

## "Vikipediya"nın italyan dili bölməsində azərbaycanlı partizan haqqında məqalə yaradılıb



Azərbaycan-İtaliya Gənclər Assosiasiyasının Sosial və elmi araşdırmalar departamentinin nəzdində fəaliyyətə başlayan "Vikipediya" qrupu tərəfindən İkinci Dünya müharibəsində alman faşizminə qarşı vuruşmuş azərbaycanlı partizan Mirdamət Seyidov haqqında məqalə yaradılıb.

Bu barədə AZƏRTAC-a AMEA-nın Mərkəzi Elmi Kitabxanasının direktor müavini Elnur Eltürk məlumat verib. O bildirib ki, məqalədə azərbaycanlı partizanın keçdiyi döyüş yolu haqqında maraqlı məlumatlar yer alıb.

Məqalədə qeyd edilib ki, Mirdamət Seyidov İkinci Dünya müharibəsi illərində Yuqoslaviya və İtaliya ərazisində işğalçılara qarşı cəsarətli əməliyyatlar aparan sovet zabiti və kəşfiyyatçısı kimi xidmət edib. Onun əfsanəvi partizanlar Cavad Həkimli, Mehdi Hüseynzadə ilə tanışlığı da buradan başlayıb. Onlar dəfələrlə birlikdə çətin tapşırıqları çiyin-çiyinə yerinə yetiriblər. Mirdamət Seyidov və Mehdi Hüseynzadə gizli antifaşist təşkilatı yaradıblar. Bir-birinin ardınca əldə olunan uğurlar onu nəinki bütün ölkədə, hətta İtaliya və Yusoqlaviyada da məşhurlaşdırır. Mavi gözlü gənc partizanı artıq İvan Ruskiy, Miriço Mario və Vesilin təxəllüsləri ilə tanıyırdılar. Mirdamət Seyidov və Mehdi Hüseynzadə 1944-cü il aprelin 2-də Triest şəhərinin yaxınlığında – Opçine adlı yerdə kinoteatrı partladıblar.

Mirdamət Seyidovun partizan həyatını əks etdirən müxtəlif sənədlər AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində saxlanılır. Mirdamət Seyidov 2011-ci ildə vəfat edib və Göygöl rayonunun Qızılca kəndində dəfn olunub. O, qələbənin əldə olunmasında göstərdiyi igidliyə görə dəfələrlə orden və medallara təltif olunub. Onun italyan pasportu, diplomları, ordenləri hazırda Moskvadakı Frunze adına Silahlı Qüvvələr Muzeyində qorunur.

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**

**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

### Allah rəhmət eləsin

**Respublika Veteranlar Təşkilatı və Qaradağ rayon Veteranlar Təşkilatı arxa cəbhə veteranı Quliyev Vəli Şamil oğlunun vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**"Azərbaycan Veteranı" qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:*** *Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:*** *Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu:*** ***012*** *440-21-08*
***e-mail:*** *az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi*** *- 3486*
***Dövlət qeydiyyat tarixi*** *- 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1200*